


# GS1 RƏQƏMSAL LİNK - BİZNES PROSESLƏRİNİ SÜRƏTLƏNDİRƏN ALƏT

СОБЫТИЯ И ФАКТЫ

## ИСПОЛЬЗОВАНИЕ СИСТЕМЫ GS1 ДЛЯ ОБЕСПЕЧЕНИЯ ПРОДОВОЛЬСТВЕННОЙ БЕЗОПАСНОСТИ В МЯСНОЙ ОТРАСЛИ АЗЕРБАЙДЖАНА



В сентябре 2024 года в Агентстве Продовольственной безопасности Азербайджана (АПБА) прошла встреча, посвящённая внедрению системы GS1 для отслеживания мясной продукции. Целью мероприятия было повысить уровень продовольственной безопасности и минимизировать риски, связанные с качеством и безопасностью пищевой продукции. Для консультации в режиме-онлайн был приглашён технический директор провайдерской компании «Osapiens» (Австрия), имеющая решения, направленные на создание систем прослеживаемости, которые соответствуют требованиям европейской отчетности и стратегии устойчивого развития.

## РЕГИОНАЛЬНЫЙ ФОРУМ GS1 IN EUROPE 2024




В период с 14 по 17 октября 2024 года в г. Вена (Австрия) прошел Региональный Форум «GS1 in Europe». На форуме было организовано 45 различных сессий, на которых присутствовали более 600 представителей из 57 стран. На пленарных заседаниях Форума были раскрыты приоритеты и планы на 2025 год. На заключительной сессии Форума выступил Президент и генеральный директор GS1 Рено де Барбюа, который рассказал о видении и стратегии GS1 на период 2025-2030 гг. В этом периоде основное внимание будет уделяться ускорению создания стандартов для отраслей, в которых наиболее широко используются стандарты GS1.

## İQTİSADİ İSLAHATLARIN TƏHLİLİ VƏ KOMMUNİKASİYA MƏRKƏZİ İLƏ NÖVBƏTİ GÖRÜŞ



24 oktyabr 2024-cü il tarixində «Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyinin idarə heyətinin sədri V. Əliyev, icraçı direktoru S.Əliyeva, Əmtəə Nömrələmə Depozitariyası müdiri G. Rəsulova ilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) icraçı direktoru Prof. Dr. Vüsal Qasımlı arasında əməkdaşlıq görüşü baş tutmuşdur. Görüşdə dünya təcrübəsində yerli və idxal olunan məhsullara tətbiq edilən Əmtəənin Qlobal İdentifikasiya Nömrəsinin (GTIN) yaratdığı imkanlar, səmərə və üstünlükləri, bu sistemin tətbiqi ilə formalaşan böyük məlumat bazalarının təqdim etdiyi imkanlar və üstünlükləri, iqtisadi proseslərin, o cümlədən inflyasiyanın izlənməsində əhəmiyyəti və yerli qanunvericilikdə tətbiqi məsələləri müzakirə olunub. Həmçinin GTIN nömrələrindən istifadə etməklə BIGDATA (böyük məlumat bazası) yaradılması və bu bazadan iqtisadi proseslərin, o cümlədən inflyasiyanın izlənməsində istifadə müzakirə edilib.

## AZƏRBAYCANDA STANDARTLAŞDIRILMIŞ MƏHSUL KATALOQUNUN YARADILMASI MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNUR



30 oktyabr 2024-cü il tarixində GS1 Azerbaijan ofisində GS1 sisteminin identifikatorlarından istifadə edilməklə Azərbaycan ərazisində satışda olan məhsulların standartlaşdırılmış kataloqunun yaradılması məsələsi müzakirə olunmuşdur. GLN və GTIN kimi identifikatorlar ticarət subyektlərinin məhsul məlumatlarının düzgün və dolğun şəkildə sistemləşdirməsinə imkan yaradır. Kataloqun mövcudluğu ticarət şəbəkələrində məhsulların uçot sistemlərinə əl ilə çoxsaylı məlumat daxiletmə ehtiyacını aradan qaldıracaq, səhvləri minimuma endirəcək, məlumatların vahidliyini və təchizat zənciri boyunca məhsulların dəqiq identifikasiyasını təmin edəcək. Belə bir kataloqun yaradılmasının əsas şərtlərindən biri gömrük bəyannamələrində, kassa çeklərində GLN və GTIN identifikatorlarının qeyd olunmasına tələbin olmasıdır. Müzakirə iştirakçıları bu məsələnin uğurlu həlli üçün hazırda Azərbaycanda müsbət şəraitin yaradıldığını vurğulayıblar.

## 2D KODLARA KEÇİD. GS1 DİGİTAL LİNK MÖVZUSUNDA GÖRÜŞ



09 dekabr 2024-cü il tarixində GS1 Azerbaijan ofisində yeni nəsil ştrixkodlarla bağlı müzakirə xarakterli görüş keçirilmişdir. Görüşdə Birliyin İdarə Heyətinin Sədri V.Əliyev, İdarə Heyətinin üzvləri — «GrandMart» MMC-nin İnzibati məsələlər üzrə şöbə rəhbəri S.Musayev və «Pak-Qida»MMC-nin direktoru Ə.Hüseynov iştirak etmişdir. GS1 Digital Link barəsində təqdimat edilmiş və video təlimatlar nümayiş etdirilmişdir. GS1 Digital Linkin üstünlükləri, tətbiq edilməsi üçün atılacaq addımların geniş müzakirəsindən sonra yaranmış sualların araşdırılması baxımından növbəti görüşün təşkil edilməsinin mütləqliyi vurğulanmışdır.

## GS1 İDENTİFİKATORLARI — BİZNES ÜÇÜN ÜMUMİ TƏMƏL



***Müasir rəqəmsal texnologiyalar dövlət idarəçiliyində səmərəliliyi artırmağa, bazar proseslərinin şəffaflığını yaxşılaşdırmağa və inflyasiyanın monitorinq keyfiyyətini yüksəltməyə imkan yaradır. GS1 Digital Link — fiziki məhsulları unikal identifikatorlar vasitəsilə onların rəqəmsal "pasportları"-na birləşdirən beynəlxalq standartdır. Bu texnologiya dünyanın qabaqcıl ölkələrində təchizat zəncirləri və pərakəndə ticarətdə izləmə qabiliyyətinin artırılması üçün istifadə olunur, lakin onun dövlət tənzimləməsi üçün potensialı daha genişdir.***

Rəqəmsal linklər məhsul haqqında onun xüsusiyyətləri, mənşəyi, təchizat zənciri boyunca hərəkəti və müxtəlif mərhələlərdəki qiymətləri barədə real vaxt rejimində məlumat əldə etməyə imkan verir. Bu texnologiyanı milli statistika, vergi və gömrük nəzarəti sistemləri ilə birləşdirmək dövlətə qiymət dinamikasını daha effektiv izləməyə, korrupsiya risklərini azaltmağa, inzibati prosesləri təkmilləşdirməyə və inflyasiyanı dəqiq proqnozlaşdırmağa kömək edəcək.

GS1 Digital Link özündə GTIN (Əmtəənin Qlobal İdentifikasiya Nömrəsi), lot nömrəsi, son istifadə tarixi, məhsulun mənşəyi, tərkibi və digər müvafiq məhsul məlumatlarını bir linkdə cəmləşdirməyə və həmin məlumatları əldə etməyə imkan verir.

Bu, GS1 identifikatorlarını və məhsul atribut məlumatlarını İnternetdə əlçatan formatda təqdim etmək üçün standart üsuldur.

GS1 Digital link adətən QR kod formatında kodlaşdırılaraq istehlakçılara və təchizat zənciri üzvlərinə ətraflı məhsul məlumatını, reklam məzmununu və ya real vaxt rejimində izləmə məlumatlarını asanlıqla skan etməyə və əlçatanlığına imkan verir.

GS1 Digital Linklər vahid məlumat dayışıcısının (QR kod tipli) təchizat zənciri əməliyyatları, satış nöqtəsi (POS) və istehsalçı məlumatları daxil olmaqla, bir çox məqsədə xidmət etməyini təmin edir. Bu, məhsulun qablaşdırılmasında çoxlu kodlara ehtiyacı azaldır və bununla da çap xərclərinə qənaət edir və ekoloji davamlılığı dəstəkləyir. İstehlakçılar smartfonlarından GS1 Digital Link QR kodunu skan etməklə məhsulun mənşəyi, komponentlərin siyahısı və məhsulun veb səhifəsi kimi əlavə təfərrüatlara asanlıqla daxil ola bilərlər. Həmçinin GS1 Digital Link-lər real vaxt yeniləmələrini dəstəkləyir. Brend istehlakçının hər zaman aktual məlumat almasını təmin edərək qablaşdırmanı dəyişmədən məhsulla əlaqəli məzmunu dəyişə bilər.

### İnflyasiya proseslərinin izlənməsi üçün rəqəmsal keçidlərin tətbiqi




*GS1 Digital Link-in ölkədə inflyasiya proseslərinin izlənməsi üçün necə istifadə oluna biləcəyinin təsviri.*

Hər bir məhsul GS1 Digital Link vasitəsilə əldə edilə bilən unikal nömrə ilə (GTIN) markalanır. Bu, məhsulun istehsalçıdan istehlakçıya qədər tədarük zəncirinin müxtəlif nöqtələrində standartlaşdırılmış identifikasiyasını təmin edir. Vahid kodun mövcudluğu ilə müxtəlif regionlarda və fərqli pərakəndə satıcılarda konkret məhsulların qiymətləri haqqında məlumatları mərkəzləşdirilmiş şəkildə toplamaq mümkündür.




GS1 Digital Link-lər ştrixkodları "ağıllı" keçidlərə çevirir. Belə bir kodu skan etməklə və linkə daxil olmaqla, məhsulun qiyməti, tövsiyə edilən pərakəndə satış qiymətləri, eləcə də xüsusi təkliflər və ya endirimlər haqqında cari məlumatların yerləşdiyi veb-səhifəyə və ya API endpointinə keçid etmək olar. Mərkəzləşdirilmiş monitorinq sistemi bu keçidlər vasitəsilə avtomatik rejimdə məlumatları toplamaq üçün periodik olaraq sorğular göndərə (veb-skreypinq və ya API vasitəsilə) bilər.

### Böyük məlumat sistemləri və analitika ilə inteqrasiya

GS1 Digital Link vasitəsilə müxtəlif ticarət şəbəkələrindən müntəzəm olaraq qiymət yenilikləri əldə edilə bilər. Bu məlumatlar statistik qurumlar, tədqiqat institutları və ya analitik şirkətlər tərəfindən geniş qiymət məlumat bazalarının formalaşdırılması üçün istifadə edilə bilər. Sonra bu məlumatlar təhlil edilərək, mal kateqoriyaları, regionlar və ya satıcı növləri üzrə inflyasiya indekslərinin hesablanmasında istifadə edilə bilər.

### Tədarük zənciri üzrə izlənmə imkanı

GS1 Digital Link vasitəsilə məhsulun istehsalçıdan son pərakəndə satıcıya qədər keçdiyi yolu izləmək mümkündür. Qiymətin tədarük zəncirinin hər bir mərhələsində necə dəyişdiyini bilmək iqtisadçılara son pərakəndə satış qiymətinin formalaşmasına təsir edən amilləri araşdırmağa və logistika xərcləri, ticarət əlavələri və xammal qiymətlərinin ümumi inflyasiya səviyyəsinə təsirini qiymətləndirməyə imkan verə bilər.

### İstehlakçılar və bazar üçün şəffaflıq

Əgər qiymət məlumatları əlçatan və unifikasiya olunmuş şəkildə təqdim edilərsə, tənzimləyicilər və istehlakçılar real vaxt rejimində bazar meyllərini qiymətləndirə bilərlər. Bu şəffaflıq, rəqabəti təşviq edə bilər və uzunmüddətli perspektivdə qiymətlərin həddindən artıq artımının qarşısını almaqda rol oynaya bilər.

### Qiymət indeksləri və statistika ilə əlaqə

GS1 Digital Link vasitəsilə toplanmış qiymət dinamikasının rəsmi statistik indekslərlə (məsələn, istehlak qiymətləri indeksləri) müqayisəsi statistik monitorinqin və inflyasiya proseslərinin proqnozlaşdırılmasının dəqiqliyini artıraraq, bu prosesi daha operativ və detallı edə bilər.

### GS1 Digital Link-in gömrük və vergi xidmətində istifadəsi

Gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi: rəqəmsal keçidlər məhsulların identifikasiyasını, təsnifat kodlarının, icazə sənədlərinin və sertifikatların yoxlanmasını sadələşdirir. Bu, gömrük prosedurlarını sürətləndirməyə, səhvləri və qaçaqmalçılıq risklərini azaltmağa kömək edir.

Vergi nəzarətinin gücləndirilməsi: vergi orqanları faktiki əməliyyatlar (qiymətlər, təchizat həcmləri) haqqında operativ məlumat əldə edə biləcək, vergilərin düzgün hesablanmasını qiymətləndirə və vergidən yayınmaya qarşı mübarizə apara biləcək. Rəqəmsal linklər dəqiq və avtomatik fiskal monitorinq üçün əsas olacaq.

### Nəticələr və gözləntilər

Düşünürük ki, rəqəmsal linklərin tətbiqi bazar şəffaflığını artıracaq, gömrük və vergi nəzarətini asanlaşdıracaq, inflyasiyanın monitorinqini yaxşılaşdıracaq və qiymətlərin dəqiq proqnozlaşdırılmasını təmin edəcək. Əczaçılıq sektorundakı pilot layihə texnologiyanın tətbiq oluna biləcəyini yoxlayacaq və uğurlu nəticələr digər sahələrə də genişlənməyə imkan yaradacaq. Uğurun açarı kompleks yanaşmadır: hüquqi dəstək, texnoloji inteqrasiya, biznesin stimullaşdırılması, əməkdaşların təlimi və davamlı analitik qiymətləndirmə. Uzunmüddətli perspektivdə rəqəmsal linklər Azərbaycanın rəqəmsal transformasiyasının mühüm hissəsi ola bilər, ölkənin rəqabət qabiliyyətini artırar, istehlakçıların hüquqlarını qoruyar və səmərəli iqtisadi siyasət üçün əsas yaradar.




*«Qlobal Standart 1 Beynəlxalq Sisteminin Təbliği» İctimai Birliyin İdarə Heyətinin Sədri Vəfa Əliyev*

## ПЕРЕХОД ОТ 1D К 2D ШТРИХКОДАМ СО СТАНДАРТАМИ GS1



Руководителя крупнейших мировых компаний, включая Alibaba, Carrefour, IGA, JD.com, JM Smucker, Mondelēz, Lidl, L'Orèal, Nestlè, P&G и другие, собрались вместе и подписали Глобальное совместное отраслевое заявление, призывающее к переходу на QR-коды на базе GS1. Цель этой инициативы состоит в том, чтобы к концу 2027 года QR-коды, соответствующие стандартам GS1, получат широкое распространение: они будут использоваться производителями на упаковке своей продукции, а розничные торговцы по всему миру смогут сканировать эти штрихкоды в точках продаж (POS). Размещение QR-кодов, на упаковках продукции по всему миру позволит производителям и розничным торговцам предлагать новые, цифровые возможности, вовлекая потребителей и покупателей в процесс взаимодействия с продукцией - будь то в магазине, дома или за его пределами. Прошло 50 лет с момента сканирования первого штрихкода продукта в продуктовом магазине. В начале 1970-х годов розничные торговцы и производители работали вместе с GS1 - всемирной организацией по стандартам данных - над принятием штрихкода в качестве универсального способа идентификации продуктов. Штрихкод используется на миллиардах продуктах по всему миру и отлично подходит для многих процессов, таких как сканирование на кассе, управление категориями, выполнение заказов в распределительных центрах и многое другое. Сегодня потребители и регулирующие органы требуют больше информации о продукте, такой как инструкции по использованию, безопасность, ингредиенты, питание, сертификация, переработка и т. д., и существует постоянная потребность в улучшении прослеживаемости продукта по всей цепочке поставок для снижения рисков и улучшения обслуживания клиентов. Однако традиционный штрихкод, который так хорошо нам служил, не способен удовлетворить эти потребности. Чтобы удовлетворить эти новые требования, сектору потребительских товаров необходим переход на QR-коды со стандартами GS1, поскольку они могут хранить большой объем информации о продукте, легко сканируются на кассе и доступны через смартфоны. Это откроет ряд новых возможностей, предоставляя всю необходимую и желаемую потребителями информацию, улучшая прослеживаемость и повышая эффективность в цепочке поставок.

## ИСПОЛЬЗОВАНИЕ СТАНДАРТОВ GS1 ДЛЯ СОЗДАНИЯ ЕДИНОЙ НОМЕНКЛАТУРЫ СТРОИТЕЛЬНЫХ МАТЕРИАЛОВ И ОБОРУДОВАНИЯ




Применение стандартов GS1 (в частности, GTIN) позволяет присваивать каждому товару уникальный код, признанный и однозначно интерпретируемый во всём мире. Это исключает путаницу при использовании локальных или внутренних кодировочных систем, повышает точность идентификации и облегчает взаимодействие между различными участниками рынка (поставщиками, дистрибьюторами, подрядчиками, ритейлерами). Единый идентификатор упрощает отслеживание движения строительных материалов от производителя до конечного пользователя. Это способствует оптимизации складских запасов, логистики и транспортировки, а также ускоряет процедуры приёмки и выдачи материалов на стройплощадке. Наличие стандартизированных идентификаторов упрощает интеграцию с BIM-системами, ERP, EDM и другими цифровыми платформами в строительной отрасли. Систематизированная и открытая база данных, основанная на стандартах GS1, повышает уровень доверия к поставщикам и производителям. Проверяемость происхождения продукции, её соответствия стандартам качества и наличия необходимых сертификатов становится проще, что снижает риск закупки некачественных или несертифицированных материалов. Единые коды упрощают документооборот между компаниями и государственными органами, минимизируют ошибки, ускоряют процесс согласования и сертификации материалов, что помогает снизить финансовые затраты. Стандарты GS1 широко применяются в различных отраслях, что обеспечивает проверенный фундамент для их внедрения и развития в строительной индустрии. Подводя итог, можно сказать, что использование стандартов GS1 в создании единой номенклатуры строительных материалов и оборудования существенно повышает эффективность обмена данными, прозрачность рынка и качество процессов во всей цепочке поставок. Это создает прочную основу для цифровизации и дальнейшего развития строительной отрасли.

***Материал составлен на основе рекомендаций GS1.***

ПОЛЕЗНАЯ ИНФОРМАЦИЯ

## ЛОГИСТИЧЕСКИЕ ЭТИКЕТКИ GS1

***Логистические этикетки формируются на основе кода SSCC (Serial Shipping Container Code) – серийный код контейнерной упаковки, применяемого для идентификации логистических единиц и оперативного получения информации о содержании паллет, поддонов, контейнеров и пр.***




Логистические этикетки уже давно признаны очень важным и эффективным методом маркировки грузов и товаров и широко применяются по всему миру многими товаропроизводителями и компаниями, которые занимаются перевозкой грузов. Номер SSCC и другая информация о логистической единице на стандартной транспортной этикетке GS1 представляется в штриховых кодах символики GS1-128. Содержание и структуру любых данных в этом штриховом коде и их дальнейшую обработку автоматизированной системой определяют так называемые Идентификаторы применения (AI). Благодаря этому, при считывании штрихового кода GS1-128 автоматизированная система может определить тип и назначение данных и, соответственно, их правильно обработать.




**Адрес GS1 Azerbaijan:** *Баку, ул. Хагани, 90А.*
**Телефоны:** *498 74 05, 498 10 58.*
**e-mail:** *ean@gs1az.org* ***www.gs1az.org***

***Подготовили: А.ЭЙВАЗОВ; Исполнительный директор GS1 Azerbaijan С. АЛИЕВА.***